№ 19-20 (851) 31 oktyabr 2026-cı il ● Qəzet 1991-ci ildən nəşr olunur ● www.health.gov.az; ● www.tibbqazeti.az

TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi



Səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 2



A.M.Bayramovun Azərbaycan Respublikasının səhiyyə naziri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 2



«Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI 4

Prezident İlham Əliyev Pirallahı Sənaye Parkında dərman istehsalı müəssisəsinin açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Pirallahı Sənaye Parkında «Gen Pharma Caucasus Manufacturing Operations» MMC-nin dərman istehsalı müəssisəsinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, əvvəlcə iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət başçısına sənaye zonaları və Pirallahı Sənaye Parkının fəaliyyəti barədə məlumat verib. Pirallahı Sənaye Parkı Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı Fərmanla yaradılıb. Əsas məqsəd əczaçılıq sənayesini inkişaf etdirmək və dəstəkləmək, əczaçılıq məhsulları üzrə idxaldan asılılığı azaltmaq, əhalinin dərman vasitələrinə olan tələbatının ödənilməsində yerli istehsalın təşviqi və istehsal sahəsində məşğulluğu artırmaqdır. Pirallahı Sənaye Parkında 6 rezident qeydiyyatdan keçib.

3



Leyla Əliyeva Arkadağ şəhərində Uşaq Sağlamlığı və Reabilitasiya Mərkəzi ilə tanış olub

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkmənistana səfəri çərçivəsində Arkadağ şəhərində yerləşən Qurbanqulu Berdiməhəmmədov adına Uşaq Sağlamlığı və Reabilitasiya Mərkəzinin fəaliyyəti ilə tanış olub.

Səh. 4

Azərbaycan nümayəndə heyəti Özbəkistanda Ümumdünya Sammitində iştirak edib

Leyla Əliyeva uşaq onkologiyası üzrə qlobal əməkdaşlığın əhəmiyyətinə diqqət çəkib



Səh. 5

Bakı I Beynəlxalq İnklüziv Məşğulluq Konfransına ev sahibliyi edib



Bakıda inklüziv məşğulluq sahəsinə həsr olunmuş beynəlxalq konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, dünyanın müxtəlif ölkələrindən tanınmış ekspertləri, dövlət qurumlarını, beynəlxalq təşkilatları, özəl sektor nümayəndələrini, akademik dairələri və vətəndaş cəmiyyəti təsisatlarını bir araya gətirən I Beynəlxalq İnklüziv Məşğulluq Konfransı autizmli və digər əlilliyi olan şəxslərin əmək bazarına inteqrasiyasının gücləndirilməsi istiqamətində Azərbaycanın ən genişmiqyaslı beynəlxalq platformalarından biri olub.

8

Azərbaycanda ilk dəfə I Milli Leyşmanioz Konfransı keçirilib



Bakıda «Leyşmaniozun müasir diaqnostikası, müalicəsi və profilaktikasına multidisiplinar yanaşmalar» mövzusunda I Milli Leyşmanioz Konfransı keçirilib.

10

Səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» publik hüquqi şəxs (bundan sonra - publik hüquqi şəxs) Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyinə verilsin.

2. Müəyyən edilsin ki:

2.1. publik hüquqi şəxsin hüquq və öhdəlikləri, habelə əmlakı Nazirliyin tabeliyində «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» publik hüquqi şəxsə (bundan sonra - TƏBİB) keçir;

2.2. TƏBİB-in nizamnamə fondu publik hüquqi şəxsin əmlakı hesabına formalaşır;

2.3. TƏBİB «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək publik hüquqi şəxs fəaliyyətini davam etdirir və onun Müşahidə Şurasının səlahiyyətlərini Nazirliyin yaratdığı komissiya həyata keçirir;

2.4. TƏBİB-in fəaliyyətinə cari rəhbərliyi Nazirlik tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən sədr və onun 4 (dörd) müavinindən ibarət İdarə Heyəti həyata keçirir.

3. TƏBİB-in təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. TƏBİB-in nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

3.1.2. TƏBİB-in idarəetmə orqanlarının yaradılması;

3.1.3. TƏBİB-in yenidən təşkili və ləğvi;

3.1.4. «Publik hüquqi şəxslər haqqında» Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

3.2. Nazirliyə:

3.2.1. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, «Publik hüquqi şəxslər haqqında» Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxslərin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. aşağıdakılarla bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

4.1.1. bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi;

4.1.2. Nazirliyin təklifləri əsasında TƏBİB-in nizamnaməsinin layihəsi, o cümlədən nizamnamə fondunun miqdarı;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Nazirlik:

5.1. bu Fərmanın 2.3-cü bəndində nəzərdə tutulan komissiyanın yaradılmasını təmin etsin;

5.2. TƏBİB-in dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra üç gün müddətində «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

5.3. TƏBİB dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində publik hüquqi şəxsin əmlakının aidiyyəti üzrə TƏBİB-in balansına verilməsi üçün müvafiq tədbirlər görsün;

5.4. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 19 oktyabr 2026-cı il

T.Y.Musayevin Azərbaycan Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Teymur Yusif oğlu Musayev Azərbaycan Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 19 oktyabr 2026-cı il

T.Y.Musayevin Azərbaycan Respublikası Baş nazirinin müavini təyin edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Teymur Yusif oğlu Musayev Azərbaycan Respublikası Baş nazirinin müavini təyin edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 19 oktyabr 2026-cı il

A.M.Bayramovun Azərbaycan Respublikasının səhiyyə naziri təyin edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Məhərrəm oğlu Bayramov Azərbaycan Respublikasının səhiyyə naziri təyin edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 19 oktyabr 2026-cı il



Anar Bayramov Səhiyyə Nazirliyinin kollektivinə təqdim olunub

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycanın səhiyyə naziri təyin edilmiş Anar Məhərrəm oğlu Bayramov Səhiyyə Nazirliyinin kollektivinə təqdim olunub. Yeni naziri kollektivə Baş nazirin müavini Teymur Musayev təqdim edib.

Bu barədə Səhiyyə Nazirliyindən verilən məlumatda bildirilir ki, təqdimat mərasimində çıxış edən Teymur Musayev qurumun qarşısında duran vəzifələrlə bağlı dövlət başçısının tapşırıqlarını diqqətə çatdırıb. O, səhiyyə sahəsində həyata keçirilən dövlət siyasətinin ardıcıl davam etdirilməsinin, qarşıya qoyulan hədəflərə nail olunması üçün mövcud imkanların səfərbər edilməsinin vacibliyini vurğulayıb. Həmçinin bu vəzifələrin icrasında yeni təyin olunmuş səhiyyə nazirinə və nazirliyin kollektivinə uğurlar arzulayıb.

Anar Bayramov ona göstərilən etimada görə təşəkkürünü bildirərək, qarşıda duran vəzifələrin layiqincə yerinə yetirilməsi üçün səylərini əsirgəməyəcəyini qeyd edib. O, səhiyyə sahəsində mövcud imkanlardan səmərəli istifadə olunmasının, fəaliyyətin müasir idarəetmə prinsipləri əsasında təşkilinin və əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsinin əhəmiyyətini vurğulayıb.

Həmçinin bildirilib ki, dövlət başçısının 19 oktyabr 2026-cı il tarixli "Səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Fərmanına əsasən, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi Səhiyyə Nazirliyinin tabeliyinə verilib.

Qeyd olunan qərarlar ölkədə səhiyyə sahəsində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, fəaliyyətin daha səmərəli əlaqələndirilməsi və səhiyyə sisteminin institusional inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Bu dəyişikliklərin səhiyyə sahəsində vahid yanaşmanın gücləndirilməsinə, qurumlararası əməkdaşlığın genişləndirilməsinə və qarşıya qoyulan strateji hədəflərin daha səmərəli həyata keçirilməsinə töhfə verməsi nəzərdə tutulur.

«Səhiyyə Nazirliyi qarşıdakı dövrdə əhalinin sağlamlığının qorunması, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, səhiyyə sisteminin müasir tələblərə uyğun inkişaf etdirilməsi və bu sahədə dövlət siyasətinin həyata keçirilməsi istiqamətində fəaliyyətini davam etdirəcək», - deyə məlumatda vurğulanıb.



Prezident İlham Əliyev Pirallahı Sənaye Parkında dərman istehsalı müəssisəsinin açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Pirallahı Sənaye Parkında «Gen Pharma Caucasus Manufacturing Operations» MMC-nin dərman istehsalı müəssisəsinin açılışında iştirak edib.







AZƏRTAC xəbər verir ki, əvvəlcə iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət başçısına sənaye zonaları və Pirallahı Sənaye Parkının fəaliyyəti barədə məlumat verib.

Pirallahı Sənaye Parkı Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı Fərmanla yaradılıb. Əsas məqsəd əczaçılıq sənayesini inkişaf etdirmək və dəstəkləmək, əczaçılıq məhsulları üzrə idxaldan asılılığı azaltmaq, əhalinin dərman vasitələrinə olan tələbatının ödənilməsində yerli istehsalın təşviqi və istehsal sahəsində məşğulluğu artırmaqdır. Pirallahı Sənaye Parkında 6 rezident qeydiyyatdan keçib.

Hazırda ölkəmizdə 8 sənaye parkı - Sumqayıt Sənaye Parkı, Mingəçevir Sənaye Parkı, Qaradağ Sənaye Parkı, Pirallahı Sənaye Parkı, Ağdam Sənaye Parkı, Hacıqabul Sənaye Parkı, "Araz Vadisi İqtisadi Zonası", Balaxanı Sənaye Parkı fəaliyyət göstərir. Bu il Naxçıvan Sənaye Parkının təməli qoyulub, zəruri infrastrukturun yaradılması istiqamətində iş aparılır. Həmçinin Gəncə şəhərinin və Şəmkir rayonunun inzibati ərazilərini əhatə edəcək Qərb Sənaye Parkında zəruri infrastrukturun yaradılması üçün layihələndirmə işləri görülür.

«Gen Pharma Caucasus Manufacturing Operations» MMC-nin təsisçisi Abidin Gülmüş müəssisə barədə Prezident İlham Əliyevə məlumat verib.



Bildirilib ki, bu müəssisəyə 2023-cü ildə Pirallahı Sənaye Parkının rezidenti statusu verilib. Təsisçilər Türkiyənin «Gen İlaç ve Sağlık Ürünleri Sanayi A.Ş.» şirkəti (66%), İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu (ABİF) (29%) və Türkiyənin «SİA Pharmaceuticals» şirkətidir (5%). Ümumi dəyəri 113,9 milyon manat olan layihənin maliyyələşdirilməsində özəl investisiya ilə yanaşı, Azərbaycan Biznesinin İnkişafı Fondunun 13,2 milyon manat investisiyasından, 10 milyon manat isə güzəştli kredit vəsaitindən istifadə edilib. Sənaye Parkının rezidenti kimi müəssisə 7 milyon manatdan çox ƏDV və gömrük rüsumlarından azad olunub.

Ərazisi 5,2 hektar olan müəssisənin illik istehsal gücü 60 milyon qutu dərman, o cümlədən 2,5 milyard tablet və kapsul təşkil edir. Burada kardiologiya, nevrologiya, urologiya, diabetologiya, qastroenterologiya sahələrində istifadə olunan preparatlar, eləcə də ağrıkəsicilər, antibiotiklər və digər dərmanlar istehsal ediləcək.

Müəssisənin inkişaf perspektivlərinə istehsalın artırılması, 5 il ərzində 500-dən artıq preparatın istehsalının lokallaşdırılması, daxili tələbatın maksimum dərəcədə qarşılanması və ixrac coğrafiyasının genişləndirilməsi daxildir.

Zavodda ABŞ, Yaponiya, Almaniya, İsveçrə, Çin, Danimarka, İsveç və Türkiyənin aparıcı şirkətlərinin istehsalı olan avadanlıq quraşdırılıb ki, bu da yüksək beynəlxalq standartlara uyğun dərman vasitələrinin istehsalına imkan verir. Məhsulların daxili bazara satılması ilə yanaşı, Özbəkistan, Qazaxıstan, Gürcüstan və digər xarici ölkələrə ixracı da nəzərdə tutulur.

Burada 178 nəfər daimi işlə təmin ediləcək.

Müəssisə fəaliyyətində təhsil və elmi əməkdaşlığa da yer ayırıb. Belə ki, burada Qarabağ Universiteti və Azərbaycan Tibb Universiteti üçün rəsmi tədris bazası yaradılıb.

Leyla Əliyeva Arkadağ şəhərində Uşaq Sağlamlığı və Reabilitasiya Mərkəzi ilə tanış olub









Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkmənistana səfəri çərçivəsində Arkadağ şəhərində yerləşən Qurbanqulu Berdiməhəmmədov adına Uşaq Sağlamlığı və Reabilitasiya Mərkəzinin fəaliyyəti ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, ziyarət zamanı Leyla Əliyevaya mərkəzdə uşaqların sağlamlığının qorunması, fiziki inkişafının dəstəklənməsi və reabilitasiyası istiqamətində həyata keçirilən layihə və xidmətlər barədə ətraflı məlumat verilib.

Mərkəzin masaj və oyun otaqları, habelə müasir reabilitasiya bölmələri ilə tanışlıq zamanı mərkəzin fəaliyyətinin beynəlxalq standartlara, tibb elminin son nailiyyətlərinə və müasir bərpa-müalicə avadanlıqlarına əsaslandığı qeyd olunub. Burada fiziki imkanları məhdud uşaqların tam reabilitasiyası və cəmiyyətə uğurlu inteqrasiyası üçün bütün zəruri şərait yaradılıb.

Xüsusi tərtibatla hazırlanan oyun otaqları isə uşaqların asudə vaxtlarının səmərəli təşkilinə, ünsiyyət bacarıqlarının formalaşmasına və psixoloji gərginliyin aradan qaldırılmasına xidmət edir. Yaradılan şərait uşaqların özlərini rahat və təhlükəsiz hiss etmələrinə, daxili potensiallarını üzə çıxarmalarına imkan verir.

«Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, «Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 134 (Cild I); 2024, № 1, maddə 81, № 5 (II kitab), maddə 594, № 9, maddə 1067, № 11, maddə 1246; 2025, № 5, maddə 504, № 12 (II kitab), maddələr 1216, 1219, 1257; 2026, № 1, maddə 84) ilə təsdiq edilmiş «Hərbi-həkim ekspertizası haqqında Əsasnamə»də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.4-cü bəndin «c» yarımbəndində «Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya» sözləri «Dövlət Tibbi Sığorta və Ekspertiza» sözləri ilə əvəz edilsin;

1.2. 2.3-cü bənddən, 2.4-cü bəndin ikinci abzasından, 2.6-cı və 2-1.1-ci bəndlərdən ismin müvafiq hallarında «,İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri çıxarılsın;

1.3. 2-1.20-ci bənddə «2 (iki)» sözləri «3 (üç)» sözləri ilə əvəz edilsin və həmin bənddən «, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 1 (bir)» sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 oktyabr tarixli 192 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 919 (Cild I) ilə təsdiq edilmiş «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə əlavə sığorta ödənişi məbləğinin hesablanması Qaydası»nın 2.1-ci bəndində «Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya» sözləri «Dövlət Tibbi Sığorta və Ekspertiza» sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 iyun tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1206 (Cild I); 2024, № 5 (II kitab), maddə 592, № 11, maddə 1246; 2025, № 12 (II kitab), maddə 1257; 2026, № 7 (II kitab), maddə 757) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - «Azərbaycan Respublikası vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırışı üzrə Mərkəzi Çağırış Komissiyasının tərkibi»nin «Komissiyanın üzvləri:» hissəsinin on üçüncü abzası ləğv edilsin.

4. «Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollegiyasının tərkibi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 avqust tarixli 359 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1810 (Cild I); 2024, № 5 (II kitab), maddə 578; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 8 sentyabr tarixli 271 nömrəli Qərarı) 1-ci hissəsinin «Kollegiyanın üzvləri» bölməsinin altıncı abzasında «Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya» sözləri «Dövlət Tibbi Sığorta və Ekspertiza» sözləri ilə əvəz edilsin.

5. «Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373 (Cild I); 2024, № 4, maddə 451, № 7, maddə 900, № 10, maddə 1169; 2025, № 2, maddə 182, № 4 (II kitab), maddə 412, № 7, maddə 721, № 10, maddə 983; 2026, № 1, maddə 83, № 5 (II kitab), maddə 469) 4-cü hissəsində «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi» sözləri ilə əvəz edilsin.

(Davamı 6-cı səhifədə)




Azərbaycan nümayəndə heyəti Özbəkistanda Ümumdünya Sammitində iştirak edib

Leyla Əliyeva uşaq onkologiyası üzrə qlobal əməkdaşlığın əhəmiyyətinə diqqət çəkib



Özbəkistanın Səmərqənd şəhərində «Uşaqların rifahına investisiya: gələcək nəsillərin dayanıqlı və ədalətli inkişafına doğru» mövzusunda Ümumdünya Sammiti keçirilib. Sammitin açılış mərasimində Özbəkistan, Qırğızıstan, Türkiyə, Livan və Zimbabvenin birinci xanımları, eləcə də beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələri çıxış ediblər. Səhiyyə Nazirliyinin mətbuat xidməti məlumat verir ki, sammit çərçivəsində təşkil olunan tədbirlərdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Azərbaycan Respublikasının səhiyyə naziri Anar Bayramov iştirak ediblər. 100-dən çox ölkədən 600-dən artıq nümayəndənin bir araya gəldiyi sammitdə uşaqların sağlamlığının qorunması, sosial rifahının və inkişafının təmin edilməsi, eləcə də uşaq onkologiyası sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə olunub.





AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Ümumdünya Sammiti çərçivəsində keçirilən «Sağalmaqdan həyat keyfiyyətinə doğru» şüarı altında Uşaq Onkologiyası üzrə II Beynəlxalq Konqresin açılışında iştirak edib.

Tədbirdə çıxış edən Leyla Əliyeva konqresin yüksək səviyyədə keçirilməsinə görə təşkilatçılara minnətdarlığını bildirib, uşaqlarda onkoloji xəstəliklərlə mübarizədə beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

«Hər bir uşaq hörmətə, qayğıya və dolğun həyat yaşamaq imkanına layiqdir», - deyən Leyla Əliyeva diqqətə çatdırıb ki, onkoloji xəstəliklərin müalicəsində əldə olunan irəliləyişlərə baxmayaraq, bütün dünyada uşaqların və onların ailələrinin ümidini qorumaq üçün birgə səylər davam etdirilməlidir. «Biz bütün dünyada uşaqlara kömək etməyə, onlara ümid verməyə çalışırıq. Azərbaycanda da bu sahə diqqət mərkəzində saxlanılır. 2012-ci ilin martında ölkəmizdə Uşaq Onkoloji Klinikasının açılışı olub. Bu, Milli Onkologiya Mərkəzinin regionda ilk uşaq klinikasıdır», - deyə o əlavə edib.

Uşaq onkologiyası sahəsində mütəxəssislərin və təşkilatların səylərini birləşdirməyə yönəlmiş təşəbbüslərin əhəmiyyətinə də toxunan Heydər Əliyev Fondunun vitse-prezidenti uşaq xərçəngi ilə mübarizə üzrə koalisiyanın yaradılmasını irəliyə doğru atılmış daha bir mühüm addım kimi dəyərləndirib.

Azərbaycanda bu xəstəlikdən əziyyət çəkən uşaqlara göstərilən dəstəkdən danışan Leyla Əliyeva tibbi yardımın dövlət tərəfindən maliyyələşdirildiyini, uşaqlara və onların ailələrinə dəstəyin davam etdirildiyini vurğulayıb. Deyib ki, heç kim bu çətin sınaqla təkbaşına mübarizə aparmalı deyil.

Çıxışında sağlamlığın emosional tərəfinə və onun insanın fiziki vəziyyəti ilə qarşılıqlı əlaqəsinə xüsusi diqqət yetirən Leyla Əliyeva bildirib: «Biz xərçəng xəstəliyini öyrənməyə davam edərkən sağlamlığın emosional tərəfini diqqətdən kənarda qoymamalıyıq. Beynimizlə bədənimiz arasındakı əlaqə çox dərindir. Emosional sarsıntıların, stresin və ətraf mühitin sağlamlığımıza necə təsir etdiyini hələ də araşdırmalıyıq».

Uşaqların ətraflarında baş verənlərə xüsusilə həssas olduqlarını, valideynlərin emosional vəziyyətinin və ailədəki mühitin onlara əhəmiyyətli dərəcədə təsir göstərdiyini vurğulayan Heydər Əliyev Fondunun vitse-prezidenti qeyd edib: «İbn Sinanın da qeyd etdiyi kimi, xəstəliyi müalicə edərkən onun səbəblərini nəzərə almaq lazımdır», - deyə Leyla Əliyeva bildirib.

Vurğulanıb ki, tibbi müalicə üsullarının inkişafı ilə yanaşı, uşaqlara psixoloji dəstəyin göstərilməsinə də diqqət yetirilməli, hər bir uşağın sevgi, hörmət və anlayışla əhatə olunması təmin edilməlidir.

Sonda uşaqların həyat şəraitinin yaxşılaşdırılması naminə çalışanlara təşəkkür edən Leyla Əliyeva uşaqların yalnız zəruri müalicə almalarının deyil, həm də dolğun həyat yaşamaq imkanı əldə etmələrinin vacibliyini diqqətə çatdırıb.

Uşaq Onkologiyası üzrə II Beynəlxalq Konqresin açılış mərasimində həmçinin Özbəkistan Prezident Administrasiyasında səhiyyə islahatları üzrə rəhbər müavini Tamila Əliyeva, Qazaxıstanın səhiyyə naziri Akmaral Alnazarova və Qırğızıstanın səhiyyə naziri Damirbek Osmonov çıxış ediblər.

Mətbuat xidmətinin məlumatında bildirilir ki, sammit çərçivəsində keçirilən «Gələcək nəsillərə investisiya: uşaqların ehtiyaclarına həssas sosial müdafiə sistemləri» mövzusunda 2-ci plenar sessiyada səhiyyə naziri Anar Bayramov çıxış edib. Nazir çıxışında Azərbaycanda uşaqların sağlamlığının qorunması, xəstəliklərin erkən aşkarlanması və tibbi xidmətlərin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib.

Səhiyyə naziri qeyd edib ki, bu siyasət Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi prinsiplərə əsaslanır və Prezident İlham Əliyevin rəhbərliyi altında davam etdirilir. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsləri və Heydər Əliyev Fondunun layihələri də uşaqların sağlamlığının, təhsilinin və sosial rifahının yaxşılaşdırılmasına mühüm töhfə verir.

Anar Bayramov uşaqların sağlamlığının qorunmasına yönəlmiş tədbirlərin insan kapitalının gücləndirilməsi və dayanıqlı inkişafın təmin olunması baxımından strateji əhəmiyyətini də vurğulayıb.

İkigünlük sammitin yekununda uşaqların sağlamlığı, sosial müdafiəsi və inkişafı sahəsində beynəlxalq əməkdaşlığın prioritetlərini əks etdirən «Səmərqənd Bəyannaməsi» qəbul olunub.

«Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

(Əvvəli 4-cü səhifədə)

6. «Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar»ın təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 iyun tarixli 199 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 789 (Cild I); 2024, № 11, maddə 1246; 2025, № 10, maddə 972) 2-ci hissəsində «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi» sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 213 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 803 (Cild I); 2024, № 2, maddə 235, № 10, maddə 1164; 2025, № 2, maddə 181; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 30 sentyabr tarixli 315 nömrəli Qərarı) ilə təsdiq edilmiş «Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən evliliyin və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası»nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1.2.10-cu yarımbənd ləğv edilsin;

7.2. 6.1.5-ci yarımbəndin 1-ci abzasına «çətin» sözündən əvvəl «gənclərin, o cümlədən» sözləri əlavə edilsin.

8. «Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyun tarixli 231 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 821 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2-ci hissədə «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və» sözləri ilə əvəz edilsin;

8.2. 3-cü hissədə «və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və» sözləri ilə əvəz edilsin.

9. «Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992 (Cild I); 2024, № 1, maddə 92, № 4, maddə 459, № 7, maddə 901, № 10, maddə 1172; 2025, № 2, maddə 183, № 4 (II kitab), maddə 413, № 7, maddə 724, № 10, maddə 984; 2026, № 1, maddə 89, № 5 (II kitab), maddə 455, № 7 (II kitab), maddə 746; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 15 oktyabr tarixli 338 nömrəli Qərarı) 3-cü hissəsində «və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və» sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 sentyabr tarixli 332 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1205 (Cild I) ilə təsdiq edilmiş «Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları»nın 3.6-cı bəndində «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin» sözləri «Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin» sözləri ilə əvəz edilsin.



11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 dekabr tarixli 479 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1583 (Cild I) ilə təsdiq edilmiş «Doğum və ölüm faktını təsdiq edən sənədlər üzrə məlumatların, habelə vətəndaşların dəfni ilə bağlı məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə ötürüləcəyi aidiyyəti dövlət informasiya ehtiyatlarının və sistemlərinin Siyahısı»nın 1-ci hissəsindən «və Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri çıxarılsın.

12. «Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar zamanı xəsarət (yaralanma, travma, kontuziya) almış hərbi qulluqçuların tibbi-sosial ekspertizası ilə bağlı bəzi məsələlər barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 13 yanvar tarixli 7 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 90 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

12.1. 1-ci hissənin «Komissiyanın üzvləri» bölməsi üzrə:

12.1.1. dördüncü abzas ləğv edilsin;

12.1.2. altıncı abzasda «Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya» sözləri «Dövlət Tibbi Sığorta və Ekspertiza» sözləri ilə əvəz edilsin;

12.2. 3-cü hissədə «, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi» sözləri ilə əvəz edilsin.

13. «Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlarda iştirak etmiş hərbi qulluqçulara və şəhid ailələrinə psixoloji yardımla bağlı bəzi məsələlər barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 13 yanvar tarixli 8 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 91 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

13.1. 1-ci hissənin «Komissiyanın üzvləri» bölməsi üzrə:

13.1.1. beşinci abzas ləğv edilsin;

13.1.2. yeddinci abzasda «Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya» sözləri «Dövlət Tibbi Sığorta və Ekspertiza» sözləri ilə əvəz edilsin;

13.2. 3-cü hissədə «, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi» sözləri ilə əvəz edilsin.

14. «Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərən dövlət orqanlarının fəaliyyətinin təşkilinə dair Əlaqələndirmə Komissiyasının yaradılması barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 oktyabr tarixli 289 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1158 (Cild I) 1-ci hissəsinin «Komissiyanın üzvləri:» bölməsinin beşinci abzası ləğv edilsin.

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 27 noyabr tarixli 371 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 11, maddə 1293 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - «COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması Qaydası»nda aşağıdakı dəyişikliklər edilsin:

15.1. 5.6-cı bənddə «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin» sözləri «Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin» sözləri ilə əvəz edilsin;

15.2. 5.7-ci bənddən «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri çıxarılsın;

15.3. 7.1-ci bənddən «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri çıxarılsın və həmin bəndə «Daxili İşlər Nazirliyini,» sözlərindən sonra «Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyini,» sözləri əlavə edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 448, 469, № 7, maddələr 895, 915, № 8, maddə 996, № 12 (I kitab), maddə 1326 (II kitab), maddə 1428; 2025, № 3, maddələr 273, 294, № 7, maddə 707, № 9, maddə 854, № 12 (II kitab), maddə 1257; 2026, № 4, maddə 380, № 5 (II kitab), maddə 474, № 7 (II kitab), maddə 754; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 9 sentyabr tarixli 278 nömrəli Qərarı) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı»nın 11-ci hissəsinin on birinci abzası ləğv edilsin.

17. «Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vahid elektron informasiya sistemi haqqında Əsasnamə»nin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 2 mart tarixli 59 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 3, maddə 261) aşağıdakı dəyişikliklər edilsin:

17.1. 5-ci hissədən «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə,» sözləri çıxarılsın;

17.2. həmin Qərarla təsdiq edilmiş «Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vahid elektron informasiya sistemi haqqında Əsasnamə»nin 3.2.5-ci yarımbəndində «Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya» sözləri «Dövlət Tibbi Sığorta və Ekspertiza» sözləri ilə əvəz edilsin.

18. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 21 may tarixli 158 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 5

(II kitab), maddə 482) ilə təsdiq edilmiş «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi Qaydası»nda aşağıdakı dəyişikliklər edilsin:

18.1. 1.2-ci bənddə «Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya» sözləri «Dövlət Tibbi Sığorta və Ekspertiza» sözləri ilə əvəz edilsin;

18.2. həmin Qaydanın 6-9 nömrəli əlavələrinin adlarında «Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya» sözləri «Dövlət Tibbi Sığorta və Ekspertiza» sözləri ilə əvəz edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri
Bakı şəhəri, 23 oktyabr 2026-cı il

Ədliyyə tibb xidmətində hərbi qulluqçuların hüquqi statusu müəyyənləşir

Ədliyyə orqanlarının tibb xidmətində hərbi qulluqçuların hüquqi statusunun müəyyənləşdirilməsi, həmin sahədə xidmət keçmənin hüquqi əsaslarının təkmilləşdirilməsi və bəzi müddəaların dəqiqləşdirilməsi məqsədilə «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Qanuna dəyişikliklər təklif olunur.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən xəbər verilib ki, bu məsələ parlamentin payız sessiyasının növbəti iclasında müzakirəyə çıxarılıb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qanun layihəsini birinci oxunuşda təqdim edib.

Diqqətə çatdırılıb ki, layihə ilə Qanunun 21.17-ci və 21.18-ci maddələrinə edilən dəyişikliklərə əsasən, Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatında olan vətəndaşlara və ehtiyatda olan zabitlərə münasibətdə penitensiar xidmət üçün nəzərdə tutulmuş xüsusi rütbələrin verilməsi qaydalarının tibb xidmətinə də şamil edilməsi təklif olunur. Bu dəyişiklik nəticəsində tibb xidmətində vəzifəyə təyin olunan ehtiyatda olan hərbi qulluqçulara xüsusi rütbələrin verilməsi məsələləri vahid hüquqi yanaşma əsasında tənzimlənəcək.



Beləliklə, qanun layihəsinin qəbulu ədliyyə orqanlarının tibb xidmətinin fəaliyyətinin daha səmərəli təşkilinə, həmin sahədə xidmət keçən hərbi qulluqçuların hüquqi statusunun dəqiq müəyyən edilməsinə, xüsusi rütbələrin verilməsi sahəsində vahid hüquqi mexanizmin formalaşdırılmasına və hüquqi tənzimləmənin təkmilləşdirilməsinə xidmət edəcək.

Deputat Razi Nurullayev məsələ barədə bəzi fikirlərini açıqlayıb.

Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Milli Məclisin növbəti iclasında qanun layihəsi ikinci oxunuşda təqdim edilib və qəbul olunub.

Gəncədə görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 130 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib

Azərbaycan Respublikası Prezidentinin 20 avqust 2026-cı il tarixli "Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 130 illiyinin qeyd edilməsi haqqında" Sərəncamından irəli gələn tədbirlər çərçivəsində Gəncə şəhərində görkəmli dövlət və elm xadimi, Azərbaycan səhiyyəsinin və tibb elminin inkişafında müstəsna xidmətləri olan professor Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 130 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.



Səhiyyə Nazirliyi Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə səhiyyə və tibb elminin nümayəndələri, alimlər, həkimlər, institutun professor-müəllim heyəti və digər qonaqlar iştirak ediblər.

İnstitutdan verilən məlumata görə, tədbirin açılış mərasimində Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev çıxış edərək konfransın Gəncə şəhərində keçirilməsinin əhəmiyyətini vurğulayıb, görkəmli dövlət və elm xadimi Əziz Əliyevin Azərbaycan səhiyyəsinin və tibb elminin inkişafındakı tarixi xidmətlərindən bəhs edib, onun zəngin irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılmasının, çoxşaxəli fəaliyyətinin və ideyalarının təbliğinin vacibliyini qeyd edib. Həmçinin belə elmi tədbirlərin səhiyyə mütəxəssisləri arasında təcrübə mübadiləsinin genişləndirilməsinə, elmi əlaqələrin möhkəmləndirilməsinə və regionlarda tibbi xidmətin inkişafına töhfə verdiyini bildirib.

Əziz Əliyev adına ADHTİ-nin rektoru, professor Nazim Pənahov çıxışında xalqımızın öz tarixinə və Vətəninə sədaqətlə xidmət etmiş görkəmli şəxsiyyətlərin xatirəsinə daim ehtiramla yanaşdığını vurğulayıb, Əziz Əliyevin Azərbaycan səhiyyəsinin, tibb elminin və tibb təhsilinin inkişafındakı müstəsna xidmətlərindən bəhs edib. Rektor qeyd edib ki, Əziz Əliyevin rəhbərliyi dövründə institutun fəaliyyəti əhəmiyyətli dərəcədə genişlənib, yeni kafedralar yaradılıb, elmi-pedaqoji kadr hazırlığı təkmilləşdirilib, müəssisə mühüm elmi-tibbi mərkəzə çevrilib. Onun zəngin elmi irsi, milli tibbi kadrların yetişdirilməsinə və səhiyyənin inkişafına verdiyi töhfələr xüsusi vurğulanıb.

Bildirilib ki, 1962-ci ildə instituta Əziz Məmmədkərim oğlu Əliyevin adının verilməsi onun tarixi xidmətlərinə göstərilən yüksək ehtiramın ifadəsidir. Görkəmli şəxsiyyətin əsasını qoyduğu elmi-pedaqoji ənənələrin bu gün də davam etdirildiyini qeyd edən rektor tibbi təhsilin müasirləşdirilməsi, elmi fəaliyyətin inkişafı və yüksəkixtisaslı həkim kadrlarının hazırlanmasının institutun əsas prioritet istiqamətləri olduğunu diqqətə çatdırıb. O, yubiley konfransının Gəncə şəhərində, bölgənin tibb ictimaiyyətinin iştirakı ilə keçirilməsinin elmi əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb.

Konfrans çərçivəsində Əziz Əliyevin zəngin həyat və fəaliyyət yoluna, Azərbaycan səhiyyəsinin və tibb elminin inkişafına verdiyi töhfələrə həsr olunmuş sənədli film nümayiş etdirilib.

Tədbirin elmi hissəsində müasir tibbin aktual istiqamətlərini əhatə edən məruzələr təqdim olunub.

Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, dosent, tibb üzrə fəlsəfə doktoru Həsən Əsədov üz-çənə nahiyəsinin müxtəlif anomaliyalarının müasir plastik və rekonstruktiv cərrahiyyə üsulları ilə bərpası, Plastik və rekonstruktiv cərrahiyyə kafedrasının müdiri, dosent, tibb elmləri doktoru Məhəmməd Davudov baş-boyun onkoloji cərrahiyyəsində müasir rekonstruktiv yanaşmalar, Terapiya kafedrasının professoru, tibb elmləri doktoru İsax Mustafayev xroniki ürək çatışmazlığının diaqnostikası, müalicəsi və proqnozlaşdırılması sahəsində müasir yeniliklər, Otorinolarinqologiya kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Məzahir Quliyev burun tənəffüsünün pozulmasının müasir müalicə strategiyaları və innovativ yanaşmaları, Kardiologiya kafedrasının assistenti Fərid Əliyev aritmologiya sahəsində yeni texnologiyalar və müasir müalicə imkanları barədə məruzələrlə çıxış ediblər.

Müasir diaqnostika və müalicə üsulları, innovativ texnologiyaların klinik praktikaya tətbiqi, multidisiplinar yanaşmalar və tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Bakı I Beynəlxalq İnklüziv Məşğulluq Konfransına ev sahibliyi edib





Bakıda inklüziv məşğulluq sahəsinə həsr olunmuş beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, dünyanın müxtəlif ölkələrindən tanınmış ekspertləri, dövlət qurumlarını, beynəlxalq təşkilatları, özəl sektor nümayəndələrini, akademik dairələri və vətəndaş cəmiyyəti təsisatlarını bir araya gətirən I Beynəlxalq İnklüziv Məşğulluq Konfransı autizmli və digər əlilliyi olan şəxslərin əmək bazarına inteqrasiyasının gücləndirilməsi istiqamətində Azərbaycanın ən genişmiqyaslı beynəlxalq platformalarından biri olub.

Konfransın əsas məqsədi inklüziv məşğulluq sahəsində beynəlxalq təcrübənin Azərbaycanda tətbiqini təşviq etmək, dövlət-özəl sektor əməkdaşlığını genişləndirmək, işəgötürənləri əlçatan və inklüziv iş mühitinin yaradılması istiqamətində maarifləndirmək, eləcə də autizmli və digər əlilliyi olan şəxslərin dayanıqlı məşğulluq imkanlarının artırılmasına töhfə verməkdir.

Konfransda İrlandiya, Fransa, Türkiyə və digər ölkələrdən tanınmış mütəxəssislər iştirak ediblər.

Heydər Əliyev Fondu, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM), Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, «Regional İnkişaf» İctimai Birliyi və «Birgə və Sağlam» İctimai Birliyi tərəfindən təşkil olunan tədbirdə həmçinin Azərbaycanın aparıcı dövlət qurumları və özəl sektor nümayəndələri inklüziv məşğulluq sahəsində həyata keçirdikləri təşəbbüsləri və uğurlu təcrübələri təqdim ediblər.

İSİM-dən verilən məlumata görə, I Beynəlxalq İnklüziv Məşğulluq Konfransının ilk günündə Prezident İlham Əliyevin gəlini Alyona Əliyevanın iştirak etdiyi rəsmi açılış mərasimi keçirilib.

Daha sonra beynəlxalq konfrans öz işini panel sessiyalarla, müxtəlif praktiki təlimlərlə davam etdirib.

Konfransında çıxış edən Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin baş direktoru Səbinə Babazadə bildirib ki, tədbirin məqsədi yalnız tibbi və elmi məsələləri müzakirə etmək deyil, həm də cəmiyyətimizin mühüm sosial məsuliyyətlərindən biri olan əlil şəxslərin sağlamlığının, inkişafının, təhsilinin və cəmiyyətə inteqrasiyasının dəstəklənməsi istiqamətində birgə yanaşmaları müəyyənləşdirməkdir: «Bu mövzuya yalnız tibbi problem kimi deyil, insan hüquqları, bərabər imkanlar, inklüzivlik və ictimai rifah baxımından da yanaşmaq vacibdir».

İSİM-in baş direktoru vurğulayıb ki, hər bir uşağın və ailənin fərdi ehtiyaclarının nəzərə alınması, onların vaxtında müvafiq mərkəzlərə yönəldilməsi və davamlı dəstəklə təmin olunması xüsusi əhəmiyyət kəsb edir: «Bu istiqamətdə əsas prioritetlərdən biri inkişaf xüsusiyyətlərinin erkən müəyyən edilməsi və dəstəyin vaxtında göstərilməsidir. Erkən aşkarlanma, düzgün qiymətləndirmə, müvafiq müdaxilə və davamlı dəstək uşaqların potensialının inkişafına, ünsiyyətinin və sosial bacarıqlarının gücləndirilməsinə mühüm töhfə verə bilər. Eyni zamanda, valideynlərin məlumatlandırılması və mütəxəssislərin dəstəklənməsi bu prosesin ayrılmaz hissəsidir. Əhalinin sağlamlığının qorunması yalnız xəstəliklərin qarşısının alınması ilə məhdudlaşmır, həm də sağlamlıqla bağlı məlumatlılığın artırılması, erkən profilaktik yanaşmaların təşviqi, səhiyyə xidmətlərinin əlçatanlığının və keyfiyyətinin yüksəlməsi, eləcə də müxtəlif sahələr arasında səmərəli əməkdaşlığın qurulmasını ehtiva edir. Bununla yanaşı, cəmiyyətdə düzgün məlumatların gücləndirilməsi, yanlış təsəvvürlərin və narahatlıqların aradan qaldırılması da mühüm vəzifələrimizdəndir. Autizmli şəxslərə və onların ailələrinə anlayışla yanaşmaq, onların hüquqlarına hörmət etmək və belə şəxslər üçün bərabər imkanların yaradılmasına töhfə vermək hər birimizin məsuliyyətidir».

Səbinə Babazadə konfransın işini yüksək qiymətləndirib, onun autizmli və xüsusi qayğıya ehtiyacı olan digər şəxslərin əmək bazarına inteqrasiyasına, onların potensialından səmərəli istifadəyə geniş yol açdığını vurğulayıb.

«SOCAR Midstream Gas Operations»in icraçı direktoru Polad Rüstəmov bildirib ki, biznes baxımından müasir əmək bazarında şirkətlərin qarşısında çoxsaylı tapşırıqlar var. Belə mühitdə cəmiyyətin insan potensialının bir hissəsi kənarda qalmamalıdır. Buna görə inklüziv məşğulluq yalnız sosial siyasət deyil, eyni zamanda, iqtisadi inkişafın bir hissəsidir. İnklüzivlik xüsusi imkan yox, bərabər imkan kimi qiymətləndirilməlidir.

«Birgə və Sağlam» İctimai Birliyinin təsisçisi Aytən Eynalova deyib ki, dəstəklənən məşğulluq modeli göstərir ki, düzgün hazırlıq, fərdi dəstək, işəgötürənlərlə həmrəyliklə neyrorəngarəng gənclər real iş mühitində uğur qazana bilərlər.

Bakı Slavyan Universitetinin (BSU) rektoru Anar Nağıyev vurğulayıb ki, inklüziv təhsil gənclərimiz üçün imkanların yaranması baxımından mühüm əhəmiyyət daşıyır. O, BSU-da 2022-ci ildən həyata keçirilən «İnklüziv təhsildən inklüziv cəmiyyətə» layihəsi barədə məlumat verib.

İki gün davam edən I Beynəlxalq İnklüziv Məşğulluq Konfransı çərçivəsində «İctimai birlik və məşğulluq siyasətləri» adlı panel sessiya keçirilib.

Digər panel sessiyada isə autizmli gənclər iş təcrübələrini bölüşüblər.

«Gen İlaç» şirkətinin inklüziv əməkdaşı İdil Dənizli şirkətdə autizmli şəxslər üçün yeni layihədən danışıb. Onlayn müsahibə və üzbəüz görüşdən sonra işə qəbul edildiyini deyib. Bildirib ki, şirkərdə işə uyğunlaşmağı üçün bütün şərait yaradılıb və iş mühiti əvvəlcədən onun üçün hazırlanıb. Nəticədə, onun özünə inamı artıb.

Media və Yayım Şurasının və Səhiyyə Nazirliyinin birgə açıqlaması



Sosial şəbəkələrdə və mesajlaşma platformalarında Səhiyyə Nazirliyinin adından hazırlandığı iddia edilən, tibb müəssisələrində hicabın istifadəsinə dair məhdudiyyət qoyulduğunu bildirən məktubun görüntüsü yayılıb.

Bununla bağlı Azərbaycan Respublikası Media və Yayım Şurasının və Səhiyyə Nazirliyinin birgə açıqlamasında bildirilir ki, həmin məktub saxtadır. Səhiyyə Nazirliyi tərəfindən belə bir sənəd qəbul edilməyib və tibb müəssisələrinə bu məzmunda göstəriş verilməyib. Saxta sənədin həqiqi rəsmi yazışma kimi təqdim olunması ictimaiyyəti çaşdıran dezinformasiyadır.

Açıqlamada qeyd olunur ki, Azərbaycan Respublikası Media və Yayım Şurası media subyektlərini və sosial media istifadəçilərini məlumatların doğruluğunu rəsmi mənbələr əsasında yoxlamağa, saxta sənədi həqiqi sənəd kimi paylaşmamağa və dezinformasiyanın yayılmasına alət olmamağa çağırır.

«Süni intellekt dövründə səhiyyə mütəxəssislərinin təhsili»

Ə.Əliyev adına ADHTİ-də bu mövzuda beynəlxalq elmi seminar keçirilib





Səhiyyə Nazirliyinin Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu (ADHTİ) və Amerikanın təhsil və elm sahəsində fəaliyyət göstərən nüfuzlu şirkətlərindən biri olan McGraw Hill-in birgə təşkilatçılığı ilə «Süni intellekt dövründə səhiyyə mütəxəssislərinin təhsili» mövzusunda beynəlxalq elmi seminar keçirilib.

Müasir tibbi təhsilin aktual məsələlərinə həsr olunan seminarda səhiyyə mütəxəssislərinin hazırlanmasında süni intellektin rolu, rəqəmsal texnologiyaların tədris prosesinə inteqrasiyası, təhsilin keyfiyyətinin yüksəldilməsi və beynəlxalq təcrübənin tətbiqi istiqamətləri müzakirə edilib. Tədbir tibbi təhsildə innovativ yanaşmaların təşviqi, qabaqcıl təcrübələrin paylaşılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Seminarda institutun rektoru, professor Nazim Pənahov müasir dövrdə tibbi təhsilin qarşısında duran yeni çağırışlardan bəhs edib. O, səhiyyə sisteminin inkişafı və tibb mütəxəssislərinin peşəkar hazırlığının təkmilləşdirilməsi prosesində rəqəmsallaşmanın və süni intellekt texnologiyalarının əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, müasir texnologiyaların tədris prosesinə inteqrasiyası biliklərin mənimsənilməsi, klinik təfəkkürün inkişafı, təlim nəticələrinin qiymətləndirilməsi və gələcək mütəxəssislərin dəyişən peşə tələblərinə uyğun hazırlanması üçün yeni imkanlar yaradır.

Tədbirin əsas məruzəçisi tibbi təhsil sahəsində tanınmış alim, Ümumdünya Tibb Təhsili Federasiyasının (WFME) qiymətləndiricilər qrupunun üzvü, professor Hossam Hamdy «Səhiyyə və tibb təhsili ekosistemlərində sürətli transformasiyaya uyğunlaşma» mövzusunda çıxış edib. Məruzədə səhiyyə və tibb təhsili sahəsində baş verən sürətli dəyişikliklər, bu dəyişikliklərin mütəxəssis hazırlığına təsiri və təhsil müəssisələrinin yeni çağırışlara uyğunlaşmasının əhəmiyyəti diqqətə çatdırılıb. Müasir təhsil modellərinin tətbiqi, innovativ tədris metodlarından istifadə və təhsilalanların gələcək peşə fəaliyyətinə hazırlanmasında yeni texnologiyaların imkanları müzakirə olunub.

Seminar çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin Al Ain Universitetinin dosenti Sabrin Ali Azim «Tədrisdən keyfiyyətə: səhiyyə mütəxəssislərinin təhsilində təlim, qiymətləndirmə və nəticələrin uzlaşdırılması» mövzusunda məruzə ilə çıxış edib. Məruzədə tədris prosesinin keyfiyyətinin təmin edilməsi, təlim məqsədləri ilə qiymətləndirmə meyarları arasında uyğunluğun yaradılması və təhsil nəticələrinin müəyyənləşdirilməsinin əhəmiyyəti diqqət mərkəzində olub. Səhiyyə mütəxəssislərinin hazırlanmasında tədrisin nəticəyönümlü təşkili və biliklərlə yanaşı, praktiki bacarıqların da qiymətləndirilməsinin vacibliyi vurğulanıb.

McGraw Hill şirkətinin Şimali və Mərkəzi Avropa, Mərkəzi Asiya üzrə akademik məsləhətçisi Nuri Karaca isə «McGraw Hill ilə tibb təhsili: inteqrasiya olunmuş peşələrarası yanaşma» mövzusunda təqdimatla çıxış edib. Təqdimatda tibb təhsilində peşələrarası əməkdaşlığın rolu, müxtəlif səhiyyə mütəxəssislərinin birgə fəaliyyətinə əsaslanan tədris yanaşmaları və müasir təhsil resurslarından istifadənin imkanları barədə məlumat verilib.

Müzakirələr zamanı süni intellektin tibbi təhsildə tətbiqinin yaratdığı imkanlarla yanaşı, tədris prosesində insan amilinin, müəllim və tələbə arasında qarşılıqlı əlaqənin, klinik təfəkkürün və peşəkar məsuliyyətin qorunmasının vacibliyi də ön plana çıxıb. Bununla yanaşı, rəqəmsal texnologiyaların tədris və qiymətləndirmə proseslərinə inteqrasiyası, müasir təhsil standartlarının tətbiqi və səhiyyə mütəxəssislərinin fasiləsiz peşəkar inkişafının təmin edilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Beynəlxalq elmi seminar tibbi təhsilin müasir inkişaf istiqamətlərinin müzakirəsi, qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və səhiyyə mütəxəssislərinin hazırlığında innovativ yanaşmaların təşviqi üçün mühüm platforma olub. Tədbir süni intellekt və rəqəmsal texnologiyaların imkanlarından səmərəli istifadə etməklə tibbi təhsilin keyfiyyətinin artırılması, tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi baxımından əhəmiyyət kəsb edib.

Azərbaycanda qripə qarşı vaksinasiyaya başlanılıb



Hər il payız-qış aylarında havaların soyuması ilə əlaqədar kəskin respirator virus infeksiyalarının, o cümlədən mövsümi qripin yayılma riskinin artması müşahidə olunur.

Əhali arasında qrip və digər respirator infeksiyaların yayılmasının qarşısının alınması, bu sahədə profilaktik tədbirlərin gücləndirilməsi məqsədilə Səhiyyə Nazirliyi tərəfindən bu il də ölkəyə qripə qarşı vaksinlər gətirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, səhiyyə nazirinin «2026-2027-ci ilin payız-qış mövsümündə respublikada kəskin respirator xəstəliklərə qarşı əksepidemik tədbirlərin gücləndirilməsi və qripə qarşı vaksinasiya kampaniyasının keçirilməsi barədə» əmrinə əsasən, oktyabrın 21-dən mövsümi qripə qarşı vaksinasiyaya başlanılıb.

Qrip infeksiyasının ağırlaşmaları baxımından daha yüksək risk qrupuna daxil olan şəxslərə, xüsusilə səhiyyə işçilərinə, hamilə qadınlara, eləcə də 6 aylıqdan yuxarı, xroniki tənəffüs sistemi xəstəlikləri olan şəxslərə qripə qarşı peyvənd olunmaq tövsiyə edilir.

Mövsümi qripə qarşı vaksinasiya xəstəlikdən qorunmanın və onun mümkün ağırlaşmalarının qarşısının alınmasının əsas profilaktik vasitələrindən biridir.

Səhiyyə Nazirliyi əhalini mövsümi qripə qarşı profilaktik tədbirlərə əməl etməyə, o cümlədən vaksinasiya prosesində fəal iştirak etməyə çağırır.

Məlumatda bildirilir ki, qripə qarşı vaksinasiya ödənişsiz həyata keçirilir və vətəndaşların yaşayış və ya iş yeri üzrə ambulator-poliklinik xidmət göstərən dövlət tibb müəssisələrində aparılır.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən verilən məlumata görə, Bakı və Sumqayıt şəhərlərində dövlət tibb müəssisələri vaksinlərlə təmin olunub və artıq peyvəndlənməyə başlanılıb. Regionlarda isə vaksinlərin tibb müəssisələrinə çatdırılması mərhələli şəkildə davam edir. Ətraflı məlumatı ailə həkimlərindən almaq mümkündür.

Bildirilib ki, bu il Niderland istehsalı olan «Influvac Tetra» dördlü qrip vaksini istifadə olunur. Peyvənd qripə yoluxma riskini, xəstəliyin ağır keçməsi və hospitalizasiya ehtimalını azaltmağa kömək edir.

Peyvəndlənmə xüsusilə risk qrupunda olanlara - 6 aydan yuxarı uşaqlara, 65 yaşdan yuxarı şəxslərə, xroniki xəstəliyi və immun sistemi zəifliyi olanlara, hamilə qadınlara və tibb işçilərinə tövsiyə edilir.

Qripə qarşı vaksinasiya könüllüdür. Peyvənd olunmaq istəyənlər ərazi üzrə ilkin səhiyyə xidməti göstərən dövlət tibb müəssisələrinə müraciət edə bilərlər.

Həmçinin bildirilib ki, Bakıda peyvəndləmə aşağıdakı tibb müəssisələrində həyata keçirilir:

Səbail rayonu üzrə: 1, 2, 33, 34 nömrəli Şəhər Poliklinikaları, 15 nömrəli Uşaq Poliklinikası;

Nəsimi rayonu üzrə: 5 və 20 nömrəli Şəhər Poliklinikaları, 1, 3 və 12 nömrəli Uşaq Poliklinikaları;

Yasamal rayonu üzrə: 3, 16, 19 və 39 nömrəli Şəhər Poliklinikaları, 5 nömrəli Uşaq Poliklinikası;

Binəqədi rayonu üzrə: 1 nömrəli Birləşmiş Şəhər Poliklinikası, 10 və 35 nömrəli Şəhər Poliklinikaları, 11 və 20 nömrəli Uşaq Poliklinikaları, Xocasən Sağlamlıq Mərkəzi;

Nərimanov rayonu üzrə: 4 və 37 nömrəli Şəhər Poliklinikaları, 7 və 14 nömrəli Uşaq Poliklinikaları;

Nizami rayonu üzrə: 26, 44 və 46 nömrəli Şəhər Poliklinikaları, 17 və 19 nömrəli Uşaq Poliklinikaları;

Xəzər rayonu üzrə: 1 və 4 nömrəli Birləşmiş Şəhər Xəstəxanaları, 45 nömrəli Şəhər Poliklinikası, Zirə Sağlamlıq Mərkəzi;

Sabunçu rayonu üzrə: Nardaran, Bilgəh və Kürdəxanı Sağlamlıq Mərkəzləri, 2 nömrəli Birləşmiş Şəhər Xəstəxanası, 11, 12, 21, 22 və 36 nömrəli Şəhər Poliklinikaları, 18 nömrəli Uşaq Poliklinikası;

Xətai rayonu üzrə: 6, 7, 14, 28 və 38 nömrəli Şəhər Poliklinikaları, 2, 4, 8 və 9 nömrəli Uşaq Poliklinikaları, Zığ Sağlamlıq Mərkəzi;

Suraxanı rayonu üzrə: Suraxanı və Hövsan Sağlamlıq Mərkəzləri, 23, 24, 42 və 43 nömrəli Şəhər Poliklinikaları, 1 nömrəli Birləşmiş Uşaq Xəstəxanası, 16 nömrəli Uşaq Poliklinikası;

Qaradağ rayonu üzrə: 3 nömrəli Birləşmiş Şəhər Xəstəxanası, 13, 32 və 41 nömrəli Şəhər Poliklinikaları.

Sumqayıt şəhərində isə peyvəndləmə 1, 2, 3, 4, 5, 6 və 7 nömrəli Ailə Sağlamlıq Mərkəzlərində həyata keçirilir.

Bakıda ağciyər sağlamlığının qorunması istiqamətində müzakirələr aparılıb

Səhiyyə Nazirliyi və Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun təşkilatçılığı ilə Ümumdünya Ağciyər Sağlamlığı Gününə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, pulmonologiya və ftiziatriya sahəsində müasir elmi və klinik yanaşmaları müzakirə etmək, yerli və xarici mütəxəssislər arasında təcrübə mübadiləsini gücləndirmək məqsədi daşıyan tədbirdə Türkiyə, Özbəkistan və Ukraynadan olan qonaqlar, yerli alimlər, pulmonoloqlar, torakal cərrahlar, ftiziatrlar, digər ixtisaslar üzrə həkimlər və laboratoriya mütəxəssisləri iştirak ediblər.



Konfransda çıxış edən Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin müdiri Ramik Quliyev bildirib ki, son illərin epidemioloji mənzərəsində yoluxucu xəstəliklərdən qeyri-infeksion xəstəliklərə doğru ciddi keçid müşahidə olunur. O qeyd edib ki, qlobal miqyasda orta ömür uzunluğu son illərdə 73-74 il olduğu halda, Azərbaycanda 2025-ci ilin sonuna bu göstərici 77 ili ötüb. Bununla yanaşı, ömür uzunluğunun artması ilə bərabər, əlavə qazanılan illərin nə dərəcədə sağlam yaşandığı da nəzərə alınmalıdır. Şöbə müdirinin sözlərinə görə, 2023-cü ildə dünyada ümumi ölüm hallarının 74 faizi qeyri-infeksion xəstəliklərin payına düşüb. 2020-ci ildə bu göstərici 58 faiz təşkil edib. Azərbaycanda da qeyri-infeksion xəstəliklərin göstəricisi və ümumi xəstəlik yükü artır. Həmin xəstəliklər sırasında ürək-damar, onkoloji və tənəffüs sistemi xəstəlikləri xüsusi yer tutur. Ramik Quliyev qeyri-infeksion xəstəliklərin yükünün artdığı şəraitdə ağciyər xəstəliklərinin və ağciyər sağlamlığının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

TƏBİB-in icraçı direktorunun müşaviri Töhfə Cəmilova ağciyər sağlamlığının qorunmasının yalnız tibbi deyil, həm də ictimai səhiyyə məsələsi olduğunu qeyd edib. O bildirib ki, bu istiqamətdə profilaktika, erkən aşkarlanma və vaxtında diaqnostika, eləcə də xəstəliklərin müalicəsi əsas əhəmiyyət daşıyır. Profilaktik tədbirlərə tibbi xidmətlərə bərabər səviyyədə əlçatanlıq, sağlam həyat tərzinin təşviqi, düzgün qidalanma, gigiyena qaydalarına əməl olunması və peyvəndlər daxildir. Töhfə Cəmilova ilkin səhiyyə xidmətlərinin gücləndirilməsinin, bu sahədə çalışan mütəxəssislərin bilik və bacarıqlarının artırılmasının, gənc kadrların bölgələrdə fəaliyyətə cəlb edilməsinin vacibliyini qeyd edib. O, ilkin səhiyyə müəssisələrində erkən diaqnostika üçün müasir texnologiyaların əlçatan olmasının da əhəmiyyətini vurğulayıb. Müşavir xroniki tənəffüs xəstəliklərinin müalicəsində reabilitasiya, davamlı dəstək, tibbi xidmətlərin ardıcıllığı və fasiləsizliyinin təmin edilməsinin vacib olduğunu bildirib.

Ətraf mühitin sağlamlığa təsirinə də toxunan Töhfə Cəmilova havanın çirklənməsinin, qapalı məkanlarda çirkli hava ilə nəfəs almağın və ictimai obyektlərdə tütün tüstüsünün ağciyər sağlamlığı baxımından əhəmiyyətli məsələlər olduğunu deyib. O qeyd edib ki, bu problemlərin həlli yalnız səhiyyə sektorunun deyil, sənaye, nəqliyyat və digər sahələrin də əməkdaşlığını tələb edir.

TƏBİB rəsmisi söyləyib ki, «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində həmin ərazilərdə tibbi xidmətlərin təşkili və əlçatanlığının təmin edilməsi əsas prioritetlərdən biridir: «Azad edilmiş ərazilərdə xidmətləri sıfırdan qurmaq kimi unikal fürsətimiz var. Bu, tibbi xidmətləri ən düzgün model və müasir yanaşmalar əsasında təşkil etməyə imkan verir. Həmin istiqamətdə bütün zəruri işləri görür, Səhiyyə Nazirliyi və digər qurumlarla əməkdaşlıq edirik. Düşünürəm ki, bu fəaliyyət ağciyər sağlamlığının qorunmasına da öz töhfəsini verəcək».

Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun baş direktoru, tibb üzrə fəlsəfə doktoru İradə Axundova ağciyər sağlamlığının insanın həyat və fəaliyyəti, sağlam gələcəyi üçün əsas şərtlərdən biri olduğunu bildirib. O, tənəffüs sistemi xəstəliklərinin qarşısının alınması və vaxtında aşkarlanmasının müxtəlif ixtisaslar arasında sıx əməkdaşlığı, pulmonoloqların, ftiziatorların, infeksionistlərin, torakal cərrahların, ilkin səhiyyə və ailə həkimlərinin, laboratoriya və digər mütəxəssislərin birgə fəaliyyətini tələb etdiyini vurğulayıb. Baş direktorun sözlərinə görə, 80 ildən çoxdur fəaliyyət göstərən institut tibbi yardım, elmi tədqiqat və təhsilin bir araya gəldiyi mühüm mərkəzdir. O, Səhiyyə Nazirliyinin dəstəyi ilə yaradılmış Milli İstinad Laboratoriyasının fəaliyyətini də qeyd edib. Laboratoriyada Ümumdünya Səhiyyə Təşkilatının tələblərinə uyğun olaraq vərəmin bakterioloji və molekulyar-genetik diaqnostikası, həmçinin skrininq həyata keçirilir. Bu imkanlar xəstəliyin aşkarlanmasına, dərmanlara davamlılığın müəyyənləşdirilməsinə və müalicə qərarlarının əsaslandırılmasına töhfə verir.

İradə Axundova son 10 ildə Azərbaycanda vərəmdən ölüm göstəricisinin üç dəfədən çox azaldığını deyib. Həmçinin bildirib ki, Azərbaycanda vərəm üzrə hər 100 min nəfərə düşən yeni xəstə sayının son 10 ildə iki dəfə azalmasına nail olunub: «Bu, çox yaxşı nəticədir və Ümumdünya Səhiyyə Təşkilatının qarşıya qoyduğu məqsədlərə çatmağa imkan yaradır».

Tədbirdə çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin üzvləri Məlahət İbrahimqızı və İlham Məmmədov, eləcə də ictimai xadim Sədaqət Vəliyeva Azərbaycanda ağciyər sağlamlığının qorunması, tənəffüs sistemi xəstəliklərinin profilaktikası və vaxtında aşkarlanması istiqamətində görülən işlərə toxunublar.

Deputat Məlahət İbrahimqızı bildirib ki, Milli Məclisin 2026-cı ilin payız sessiyasında vərəm xəstəliyinə həsr olunmuş parlament dinləməsi keçiriləcək. Hər kəsi dinləmədə fəal iştirak etməyə çağıran M.İbrahimqızı qeyd edib ki, bu müzakirələr mövcud problemlərin parlament səviyyəsində səsləndirilməsi və onların həlli yollarının müəyyənləşdirilməsi üçün mühüm fürsətdir: «Azərbaycanda vərəm xəstəliyi ilə bağlı ayrıca qanun qəbul olunsa da, zaman keçdikcə xəstəliyin aradan qaldırılması, profilaktikası və erkən aşkarlanması sahəsində yanaşmalar dəyişir. Tibb elminin inkişafı və yeni nailiyyətlər bu sahədə mövcud məsələlərə müasir yanaşmalar əsasında baxılmasını zəruri edir. Xüsusilə praktiki tibb işçilərinin və həkimlərin dinləmədə iştirakı vacibdir. Onların təklifləri müzakirələrin nəticələrinin qanunlarda və qərarlarda əksini tapmasına mühüm töhfə verə bilər».

Konfrans öz işini təqdimat və müzakirələrlə davam etdirib.

Azərbaycanda ilk dəfə I Milli Leyşmanioz Konfransı keçirilib

Bakıda «Leyşmaniozun müasir diaqnostikası, müalicəsi və profilaktikasına multidisiplinar yanaşmalar» mövzusunda I Milli Leyşmanioz Konfransı keçirilib.



AZƏRTAC xəbər verir ki, Səhiyyə Nazirliyinin V.Axundov adına Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutu, Kənd Təsərrüfatı Nazirliyinin Baytarlıq Elmi Tədqiqat İnstitutu, Elm və Təhsil Nazirliyinin Canlı Sistemlərin Tədqiqi İnstitutunun təşkilatçılığı ilə keçirilən konfrans müxtəlif ölkələrdən dəvət olunmuş qonaqları, Azərbaycan alimlərini, həkimlərini, laboratoriya mütəxəssislərini və səhiyyə sahəsinin nümayəndələrini bir araya gətirib.

Tədbirdə leyşmaniozun epidemiologiyası, klinik xüsusiyyətləri, müasir laborator diaqnostikası, müalicə strategiyaları və profilaktikası ilə bağlı aktual elmi-praktik məsələlər müzakirə edilib. Eyni zamanda, xəstəliklə mübarizədə multidisiplinar əməkdaşlığın və müasir elmi yanaşmaların əhəmiyyəti diqqət mərkəzində olub.

I Milli Leyşmanioz Konfransı xəstəliyin diaqnostikası, müalicəsi və profilaktikası sahəsində elmi bilik və təcrübə mübadiləsinin genişləndirilməsi, mütəxəssislər arasında əməkdaşlığın gücləndirilməsi baxımından mühüm elmi platforma rolunu oynayıb.

Tibbi Profilaktika İnstitutunun direktoru, professor Adil Allahverdiyev AZƏRTAC-a açıqlamasında deyib ki, Azərbaycanda leyşmanioz xəstəliyinə qarşı mübarizə və maarifləndirmə tədbirləri çərçivəsində keçirilən ilk milli konfrans böyük əhəmiyyət kəsb edir. Bu xəstəliyin dünyada 50-yə yaxın ölkədə rast gəlinməsinə baxmayaraq, mövcudluğu və yayılma dinamikası fövqəladə dərəcədə qorxuludur. Xəstəlik hallarının hər gün artması və ölkəmizə çoxlu sayda turistlərin gəlişi nəzərə alındıqda, bu vəziyyət turizm sektoruna da böyük zərbə vura bilər.

İnstitutun direktoru bildirib ki, Ümumdünya Səhiyyə Təşkilatı leyşmaniozu «unudulmuş xəstəliklər» siyahısına daxil edib: «Bu xəstəlik əsasən kasıb bölgələrdə qeydə alındığı üçün həmin ərazilərə kifayət qədər iqtisadi yatırım olunmurdu. İş adamları və aidiyyəti qurumlar investisiya qoymamaq üçün bu problemi diqqətdən kənarda saxlayırdılar. Lakin hazırda xəstəlik yenidən baş qaldıraraq ən aktiv mərhələyə keçib. Konfransın keçirilməsində əsas məqsəd bu təhlükəni geniş ictimaiyyətə çatdırmaq, «Ölkədə belə bir təhlükə və məsələ var, özünüzü leyşmanioza görə yoxlatdırın» mesajını əhaliyə ötürməkdir. Hər hansı bir xəstənin əlində, qolunda və ya bədənində digər səbəbi bəlli olmayan yara əmələ gələndə ilk ağlagələn ehtimal leyşmanioz olmalıdır. Xəstəliyin doğru diaqnostikası Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutunda aparılır. Uzun illər ərzində Azərbaycanda bu institut bu sahədə çox dəyərli alimlər yetişdirib, hazırda onların nəsli və davamçıları bu vacib işi uğurla davam etdirirlər».

Qeyd edək ki, I Milli Leyşmanioz Konfransı çərçivəsində elmi konfransın bir neçə panel iclası ilə yanaşı, «Azərbaycanda leyşmaniozla mübarizənin milli vahid sağlamlıq strategiyası» adlı dəyirmi masa, həmçinin Tibbi Profilaktika İnstitutunda təlim proqramı da keçirilib.

Tədbir Səhiyyə Nazirliyinin Elmi Şurası tərəfindən akkreditasiya olunub, elmi konfrans 11, təlim 6 bal olmaqla, cəmi 17 Davamlı Tibbi Təhsil balı ilə qiymətləndirilib.

Professor Nazim Əfəndiyevin anadan olmasının 100 illik yubileyi qeyd edilib



Səhiyyə Nazirliyinin, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin birgə təşəbbüsü ilə professor Nazim Əfəndiyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş Azərbaycan Gənc Oftalmoloqlarının XVIII Konfransı və IV Forumu keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədri, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru, professor Elmar Qasımov Azərbaycan tibb elminin tarixində dərin və silinməz izlər qoymuş görkəmli alim, yüksəkixtisaslı oftalmoloq-cərrah professor Nazim Mirqasım oğlu Əfəndiyevin həyat və fəaliyyətindən, oftalmologiyanın inkişafındakı xidmətlərindən bəhs edib.



Bildirilib ki, bütün şərəfli ömrünü insanların gözlərinə nur bəxş etməyə həsr etmiş professor Nazim Əfəndiyev Azərbaycanda gözün mikrocərrahiyyəsi üsullarını ilk tətbiq edən novator cərrahlardandır. Onun elmi tədqiqat işləri əsasən göz almasının müxtəlif patologiyaları zamanı şüşəvari cismin biokimyəvi, biofiziki və morfoloji xüsusiyyətlərinin öyrənilməsinə, eləcə də optik-rekonstruktiv mikrocərrahi əməliyyatların yeni üsullarının işlənib hazırlanmasına həsr olunub. Alim 150-yə yaxın elmi əsərin, o cümlədən 3 monoqrafiyanın, 3 ixtiranın və 20-dən çox metodik tövsiyənin müəllifidir. Onun rəhbərliyi ilə 13 namizədlik və 1 doktorluq dissertasiyası uğurla müdafiə edilib.

Diqqətə çatdırılıb ki, görkəmli alim Azərbaycanda traxoma xəstəliyinin kökünün tamamilə kəsilməsində, Respublika Oftalmoloji Lazer Mərkəzinin və müasir diaqnostik laboratoriyaların yaradılmasında müstəsna rol oynayıb. O, 25 il Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş oftalmoloqu olub, Ümumittifaq Oftalmoloqlar Cəmiyyətinin İdarə Heyətinin üzvü kimi ölkəmizi beynəlxalq miqyasda ləyaqətlə təmsil edib.

Çıxışda professorun oftalmologiyanın inkişafı ilə bağlı arzularının bu gün gerçəkləşdiyi də vurğulanıb. Bildirilib ki, bu gün Milli Oftalmologiya Mərkəzi professorun bir zamanlar xəyal etdiyi müasir binada fəaliyyət göstərir.

«Təəssüf ki, Nazim müəllimə bu binada çalışmaq nəsib olmadı. Lakin onun yetişdirdiyi mütəxəssislər bu gün həmin mərkəzdə fəaliyyətlərini davam etdirir, yaratdığı elmi məktəbin ənənələrini yaşadır və oftalmologiyanın inkişafına öz töhfələrini verirlər. Bu gün mərkəzin əldə etdiyi hər bir uğurda Nazim Əfəndiyevin zəhmətinin və zəngin irsinin izi var», - deyə Elmar Qasımov bildirib.

Azərbaycan Gənc Oftalmoloqlarının XVIII Konfransı və IV Forumu barədə də fikirlərini bölüşən professor E.Qasımov deyib ki, tədbirin əsas məqsədi gənc oftalmoloqların elmi və peşəkar inkişafını dəstəkləmək, onların nəzəri biliklərini və praktik bacarıqlarını artırmaq, eləcə də oftalmologiya sahəsində müasir elmi nailiyyətlərin, innovativ texnologiyaların və yeni müalicə yanaşmalarının müzakirəsi üçün elmi platforma yaratmaqdır.

Konfrans və Forum gənc mütəxəssislərin elmi təcrübə mübadiləsi aparması, klinik təcrübə ilə elmi tədqiqatlar arasında əlaqələrin gücləndirilməsi, həmçinin oftalmologiyanın aktual problemlərinin müzakirəsi baxımından mühüm əhəmiyyət daşıyır.

Digər çıxış edənlər də professor Nazim Əfəndiyevin tibb elminə verdiyi töhfələrdən, yüksək insani keyfiyyətlərindən danışıb, onunla bağlı xatirələrini bölüşüblər.

Çıxış edənlər böyük alim, zəngin mənəviyyata və şair təbiətinə malik nəcib insan professor Nazim Əfəndiyevin xatirəsinin və zəngin elmi irsinin Azərbaycan oftalmologiya ictimaiyyətinin qəlbində daim yaşayacağını vurğulayıblar.

Tədbirdə həmçinin Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin Gənc Oftalmoloqlar Komitəsi və Gənc Oftalmoloqlar Konfransı və forumu barədə məlumat verilib. Bildirilib ki, Azərbaycan Gənc Oftalmoloqlarının XVIII Konfransının rəsmi şüarının «Oftalmologiya və lazerlər» seçilməsi də təsadüfi deyil. Professor N.Əfəndiyevin peşəkar fəaliyyətinin ən məhsuldar dövrünə təsadüf edən 1980-1990-cı illərdə lazer texnologiyalarının oftalmologiyaya sürətlə daxil olması yeni diaqnostik və müalicə imkanlarının yaranmasına səbəb olub. Azərbaycanda gözün mikrocərrahiyyəsinin inkişafında və oftalmoloji lazer texnologiyalarının tətbiqində professor Nazim Əfəndiyevin xidmətləri bu tarixi prosesdə mühüm rol oynayıb.

Qeyd olunub ki, hər il Gənc Oftalmoloqlar Konfransında yeni ideya və təkliflər irəli sürülür. Bu il konfrans çərçivəsində ilk dəfə «Bir əməliyyat, iki baxış» adlı video-debat sessiyası təşkil olunacaq. Sessiyanın məqsədi gənc mütəxəssislərin klinik və cərrahi praktikada qarşılaşdıqları mürəkkəb halları fəal şəkildə müzakirə etmələri, müxtəlif yanaşmaları müqayisə etmələri və təcrübəli mütəxəssislərin rəy və tövsiyələrindən faydalanmalarıdır. Bu formatın gənc cərrahların klinik düşüncəsinin və praktik bacarıqlarının inkişafına mühüm töhfə verəcəyi bildirilib.

Vurğulanıb ki, artıq dördüncü dəfə təşkil olunan Azərbaycan Gənc Oftalmoloqlarının Forumu yalnız müasir lazer texnologiyalarının müzakirə edildiyi elmi toplantı olmayacaq, həm də keçmişdən gələcəyə uzanan oftalmoloji ənənənin davamı olacaq. Qeyd edilib ki, bu gün lazer texnologiyalarından süni intellektə, dəqiq diaqnostikadan minimal invaziv cərrahiyyəyə qədər oftalmologiyada yeni imkanlar yaranır. Bu imkanları gələcəyin uğurlarına çevirmək isə yeniliyə açıq, daim öyrənən və inkişaf edən gənc mütəxəssislərdən asılıdır. Professor Nazim Əfəndiyevin oftalmologiyaya verdiyi töhfələrin ən layiqli davamı yeni nəslin elmi düşüncəsi, cərrahi bacarığı və yeniliklərə açıq baxışıdır.

Qeyd olunub ki, gələn il oktyabrın 29-da keçirilməsi nəzərdə tutulan Azərbaycan Gənc Oftalmoloqlarının XIX konfransı və V Forumu professor Qəmər Adıgözəlova-Polçayevanın xatirəsinə həsr olunacaq və «Göz xəstəlikləri və müasir farmakologiya» şüarı altında təşkil ediləcək.

Tədbir çərçivəsində «Professor Nazim Əfəndiyev adına cərrahi innovasiya medalı» da təqdim edilib. Həmçinin alimin həyat və fəaliyyətindən, eləcə də Gənc Oftalmoloqların konfrans və forumlarından bəhs edən videoçarx nümayiş etdirilib.

Konfrans çərçivəsində oftalmologiyanın müxtəlif istiqamətlərini əhatə edən aktual elmi mövzular üzrə məruzələr təqdim olunub.

Azərbaycanın tibb tarixində ilk: 19 həftəlik hamilə qadın üzərində dünyada nadir rast gəlinən əməliyyat aparılıb

Azərbaycan səhiyyəsində mühüm yeniliyə imza atılıb. Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında 19 həftəlik hamilə qadının üzərində dünyada nadir hallarda tətbiq olunan laparoskopik uroloji əməliyyat uğurla icra edilib.

ATU-dan verilən məlumata görə, əməliyyat 20 yaşlı, ilk hamiləliyini yaşayan qadın üzərində aparılıb. Hamiləlik dövründə arterial təzyiqinin dəfələrlə 170-180 mm c.s.-na qədər yüksəlməsi səbəbindən ultrasəs müayinəsindən keçirilən pasiyentin sağ böyrəküstü vəzisində 8 sm ölçüdə törəmə aşkarlanıb.

ATU-nun Tədris Cərrahiyyə Klinikasına yerləşdirilən xəstənin instrumental və laborator müayinələri nəticəsində törəmənin feoxromositoma olduğu müəyyən edilib.

Nadir rast gəlinən neyroendokrin törəmə olan feoxromositoma arterial təzyiqin qəfil və kəskin yüksəlməsinə səbəb ola bilər. Hamiləlik zamanı belə bir vəziyyətin yaranması həm ana, həm də bətnindəki körpənin həyatı üçün ciddi təhlükə yaradır.

Pasiyentin vəziyyəti nəzərə alınaraq, ginekoloq, endokrinoloq, kardioloq və anesteziologların iştirakı ilə geniş tibbi konsultasiyalar, zəruri müayinə və əməliyyatöncəsi hazırlıq tədbirləri həyata keçirilib. Bundan sonra ATU-nun Tədris Cərrahiyyə Klinikasında sağ böyrəküstü vəzinin çıxarılması - sağtərəfli adrenalektomiya əməliyyatı laparoskopik üsulla uğurla icra olunub.

Açıq cərrahi müdaxilədən fərqli olaraq, laparoskopik üsul kiçik kəsiklər vasitəsilə həyata keçirilən müasir, minimal invaziv yanaşmadır. Hamiləlik dövründə, xüsusilə də ana və döl üçün ciddi risk yaradan belə bir xəstəlik zamanı bu metodun tətbiqi yüksək peşəkarlıq və diqqətli tibbi planlaşdırma tələb edir. Beləliklə, həyati risk yaradan vəziyyətə baxmayaraq, həkimlər ana və döl üçün yüksək risk daşıyan əməliyyatı müasir, minimal invaziv üsulla uğurla başa vurublar. Əməliyyat ATU-nun Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev tərəfindən icra edilib.

Laparoskopik yanaşmanın ən böyük üstünlüyü odur ki, pasiyentin yüksəkriskli və ağır bir əməliyyat keçirməsinə baxmayaraq, xəstəxanada qalma (hospitalizasiya) müddəti cəmi 2 gün çəkib. Artıq evə buraxılan pasiyent hazırda həkim nəzarətindədir. Həm ana, həm də dölün vəziyyəti yaxşıdır və heç bir risk yoxdur.

Azərbaycan tibb tarixində ilk olan bu uğurlu əməliyyat hamiləliyin idarə edilməsi və minimal invaziv cərrahiyyə sahəsində mühüm bir nailiyyətdir. Bu hadisə hamiləlik dövründə nadir və yüksəkriskli xəstəliklərin müalicəsində müasir cərrahi texnologiyaların və müxtəlif ixtisaslı həkimlərin birgə fəaliyyətinin əhəmiyyətini bir daha nümayiş etdirir.

Səhiyyə Nazirliyinin mobil klinikası Xocalıda tibbi xidmət göstərib

İşğaldan azad olunmuş ərazilərdə yaşayan əhalinin sağlamlıq vəziyyətinin qiymətləndirilməsi, xəstəliklərin erkən mərhələdə aşkarlanması və tibbi xidmətlərin əlçatanlığının artırılması məqsədilə Səhiyyə Nazirliyinin təşkil etdiyi səyyar tibbi müayinələr davam edir.







«Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində növbəti tibbi aksiya Xocalı rayonunda keçirilib. Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun mütəxəssisləri tərəfindən təşkil olunan müayinələr zamanı yerli sakinlərə müxtəlif istiqamətlər üzrə tibbi xidmətlər göstərilib.

Xüsusi tibbi avadanlıqlarla təchiz edilmiş mobil klinika və modul tipli səyyar laboratoriya sakinlərin yaşadıqları ərazidə müayinələrdən keçməsinə və zəruri diaqnostik xidmətlərdən yerində yararlanmasına imkan yaradıb.

Aksiya çərçivəsində pulmonoloq, ftiziatr, allerqoloq və kardioloqlarla yanaşı, şüa diaqnostikası və laboratoriya mütəxəssisləri də fəaliyyət göstəriblər. Flüoroqrafiya, rentgen, elektrokardioqrafiya (EKQ), exokardioqrafiya, ultrasəs müayinəsi (USM), spirometriya, Mantu sınağı və arterial qanın qaz tərkibinin analizi aparılıb.

Müayinələr zamanı sağlamlıq problemləri aşkarlanan şəxslərə müvafiq tibbi tövsiyələr verilib, zəruri hallarda müalicə təyin olunub və əlavə müayinələr üçün ixtisaslaşmış həkimlərə yönləndirilmələr həyata keçirilib.

Ümumilikdə, aksiya zamanı Xocalının 147 sakini tibbi müayinələrdən keçib. Bununla yanaşı, sakinlərə ağciyər xəstəliklərinin əsas risk amilləri, ilkin əlamətləri və profilaktikası barədə məlumat verilib, sağlamlığın qorunmasında müntəzəm tibbi müayinələrin əhəmiyyəti izah olunub.

Adıçəkilən proqram çərçivəsində bu cür tədbirlərin işğaldan azad olunmuş digər ərazilərdə də davam etdirilməsi nəzərdə tutulur.

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi ilə Türk Dünyası Parlamentariləri Fondu arasında Əməkdaşlıq Memorandumu imzalanıb



Sənəd tərəflər arasında ikitərəfli əməkdaşlığın əsas istiqamətlərini müəyyən edir.

Memorandum İSİM-in baş direktoru Səbinə Babazadə və Fondun Elmi şurasının sədri Prof. Dr. Selçuk Kılıç tərəfindən imzalanıb.

Bu əməkdaşlıq çərçivəsində:

- birgə elmi və tədqiqat proqramlarının, layihələrin həyata keçirilməsi
- elmi sənəd və ədəbiyyat mübadiləsi
- birgə təlim, konfrans və görüşlərin təşkili nəzərdə tutulur.

Əməkdaşlığın əsas istiqamətlərindən biri Milli Onkologiya Mərkəzi ilə birgə HPV skrininq proqramı, yenidoğulmuşların skrininqi, nikahdan əvvəl genetik skrininq proqramı, milli molekulyar diaqnostika və epidemioloji nəzarət infrastrukturunun inkişafı, eləcə də digər səhiyyə proqramlarının planlaşdırılmasıdır.

Səhiyyə Nazirliyində «Vətəndaş qəbulu» tam rəqəmsallaşıb

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı» çərçivəsində dövlət idarəetməsində rəqəmsal texnologiyaların tətbiqi və daxili iş proseslərinin optimallaşdırılması istiqamətində tədbirlər davam etdirilir. Bu istiqamətdə Səhiyyə Nazirliyinin Rəqəmsal Səhiyyə Mərkəzi tərəfindən nazirliyin internet portalında «Vətəndaş qəbulu» modulu hazırlanaraq istifadəyə verilib.

Nazirliyin mətbuat xidmətinin verdiyi məlumata görə, yeni rəqəmsal həll vətəndaş qəbullarının qeydiyyatını, müraciətlərin nəticələrinin izlənilməsini və təhlilini vahid elektron mühitdə birləşdirir.

Modul vasitəsilə hər bir qəbul üzrə vətəndaşın məlumatları, müraciətin məzmunu, aidiyyəti struktur bölmələr, məsul əməkdaş və qəbulun nəticəsi vahid elektron kartda qeydə alınır. Sistem vətəndaş məlumatlarının avtomatlaşdırılmış qaydada əldə edilməsinə, müraciətlərə aid sənədlərin elektron formada əlavə olunmasına və məlumatların təkrar daxil edilməsinin azaldılmasına imkan yaradır.

Yeni modulun mühüm üstünlüklərindən biri müraciətlərin nəticələrinin sistemli şəkildə izlənilməsi və təhlilidir. Elektron sistemdə müraciətlərin statusları üzrə uçot aparılır, müxtəlif meyarlar əsasında axtarış və filtrasiya imkanları təqdim olunur. Eyni zamanda, rəhbərlik üçün gündəlik, həftəlik, aylıq və digər dövrlər üzrə analitik hesabatların hazırlanması təmin edilir.

Bu imkanlar vətəndaş müraciətlərinin əsas mövzularını, onların struktur bölmələr üzrə bölgüsünü və qəbulun nəticələrini operativ qiymətləndirməyə, mövcud problemləri müəyyənləşdirməyə və idarəetmə qərarlarının məlumatlar əsasında qəbuluna şərait yaradır.

«Vətəndaş qəbulu» modulunun istifadəyə verilməsi Səhiyyə Nazirliyində daxili idarəetmə proseslərinin rəqəmsallaşdırılması, vətəndaşlarla işin səmərəliliyinin artırılması, nəzarət və hesabatlılıq mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin mühüm hissəsidir. Modulun tətbiqi ilə vətəndaş qəbulları üzrə məlumatlar vahid elektron mühitdə idarə olunacaq və məlumatlara əsaslanan idarəetmə imkanları genişləndiriləcək.

«Tibb işçisinin etik davranış qaydaları» mövzusunda təlimlər keçirilir

Tibb işçilərinin davranış və ünsiyyət bacarıqlarını beynəlxalq standartlara uyğun inkişaf etdirmək və vətəndaşların göstərilən tibbi xidmətlərin keyfiyyətindən məmnunluğunu artırmaq məqsədilə Yeni Klinikada «Tibb işçisinin etik davranış qaydaları» mövzusunda təlim keçirilib.



Səhiyyə Nazirliyinin mətbuat xidmətinin verdiyi məlumata görə, təlimdə Nazirliyin Bakı və Sumqayıt şəhərlərində, eləcə də Abşeron rayonunda fəaliyyət göstərən elmi tədqiqat institutlarının və digər tabeli tibb müəssisələrinin rəhbər şəxsləri, direktor müavinləri, baş həkimləri və baş tibb bacıları olmaqla, ümumilikdə 140-a yaxın tibb işçisi iştirak edib.

Təlim çərçivəsində tibb işçilərinin etik davranış prinsipləri, vətəndaşlara nəzakətli və həssas yanaşma, şəxsi sərhədlərə hörmət və effektiv ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi məsələlərinə diqqət yetirilib.

Baş redaktor: N.MƏCİDOVA
Baş redaktorun müavini: S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi: Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92
Ünvan: Həsən bəy Zərdabi küç., 96.
Tel./faks: (012) 596-06-61
3-cü mərtəbə, 6-cı otaq
E-mail: tibbqazeti@mail.ru
www.tibbqazeti.az

Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.